Baku 2015
1st EUROPEAN GAMES

# Güclülər qalib gəlir





# Cənab Prezident, əsgər Zəkiyev Sizin verdiyiniz döyüş tapşırığını yerinə yetirdi!

## *Qarabağ müharibəsi veteranı Silahlı Qüvvələr Günündə Ali Baş Komandana çempionluq raportu verdi*



Azərbaycan idmanının tarixində şanlı səhifələr çoxdur. Dövlət müstəqilliyimizi bərpa etdiyimiz vaxtdan bugünə qədər idmançılarımızın müxtəlif səviyyəli beynəlxalq yarışlarda saysız-hesabsız medala layiq görülməsi bunun əyani sübutudur. Bunlar arasında müxtəlif qüsurlu əlil idmançılar - paralimpiyaçılar da xüsusi yerə malikdirlər.



Fərəhli haldır ki, paralimpiyaçılarımız get-gedə daha yaxşı çıxış edir və yeni-yeni milli rekordlar müəyyənləşdirirlər. Belə bir xoş ənənə tarixdə ilk dəfə Bakıda təşkil olunan Avropa Oyunlarında da davam edib.

İyunun 26-da "Bakı-2015" ilk Avropa Oyunlarında paracüdoçular mübarizə aparıblar. İki çəki dərəcəsi üzrə təşkil olunan yarışda Azərbaycan 3 idmançı ilə təmsil olunub. Komandamızın heyətində tatamiyə çıxan bütün paracüdoçularımız çıxışlarını mükafatla başa vurublar. Millimizin aparıcı üzvü İlham Zəkiyev qızıl, Səbinə Abdullayeva gümüş və Zakir Mislimov bürünc medal qazanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev adına İdman Sarayında təşkil olunan final qarşılaşmalarını izləyiblər.

Kişilərin +90 kq çəki dərəcəsində mübarizəsində ölkəmizi İlham Zəkiyev və Zakir Mislimov təmsil edib.

İlham Zəkiyev yarışa yarımfinal mərhələsindən qoşulub. Paralimpiya çempionu, Avropa Oyunlarının məşəldarı finala gedən yolda Yunanıstan idmançısı Klimis Papaçristosla üz-üzə gəlib. Təcrübəli idmançımıza mərhələ adlamağa cəmi 27 saniyə vaxt bəs edib. "Neftçi" İdman Klubunun üzvü ipponla qalib gələrək, finala yüksəlib. Həlledici mərhələdə rəqib ukraynalı Aleksandr Pominov olub. İlham bu görüşü də ipponla qalib başa vuraraq Avropa Oyunlarının çempionu olub.

Sonda medalları ilk üç yerin sahiblərinə Prezident cənab İlham Əliyev təqdim edib. Mükafatlandırma mərasimi zamanı dövlət başçısı İlham Zəkiyevlə birlikdə fəxri kürsüyə qalxıb. Himnimiz səslənib. Sevincimizin həddi-hüdudu yoxdu. Afərin, İlham Zəkiyev!

İ.Zəkiyev mükafatlandırma mərasimində Prezident İlham Əliyevlə arasında olan qısa dialoqa aydınlıq gətirib: "Mən bu məsuliyyəti dərk edirdim. Xırda zədələr olsa da, şükürlər olsun ki, bunlar qələbə qazanmağıma mane olmadı. Azərbaycan bu qızılı məndən gözləyirdi. Dövlət başçısı İlham Əliyev və "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva tərəfindən mənə xüsusi missiya həvalə olunmuşdu. Açılış mərasimində məşəli alovlandırdım. Atəşgahda məşəlin alovlandırılması mərasimində Silahlı Qüvvələr Günündə Ali Baş Komandana qızıl medal qazanacağıma söz vermişdim. Dedim ki, cənab Prezident əsgər Zəkiyev sizin verdiyiniz döyüş tapşırığını yerinə yetirdi. Bu qızıl medalı cənab Prezidentə, Azərbaycan xalqına həsr edirəm".

Məlumat üçün qeyd edək ki, İlham Zəkiyev ikiqat paralimpiya ("Pekin-2008", "London-2012") və dünya, beşqat Avropa çempionu, həmçinin əməkdar idman ustasıdır. "Şöhrət" ordeni, "Tərəqqi" medalı ilə təltif olunub və Heydər Əliyev Fondunun təsis etdiyi Beynəlxalq "Qızıl çinar" mükafatının laureatıdır.

1980-ci il martın 3-də Sumqayıtda anadan olan İlham Zəkiyevin idmana həvəsi güləşlə məşğul olan böyük qardaşının sayəsində yaranıb. İlham 15 yaşından etibarən cüdo ilə məşğul olmağa başlayıb. O, qısa müddətdə bir sıra uğurlar qazanıb və Sumqayıtda keçirilən yarışda qalib gəlib. Gənclər arasında keçirilən cüdo üzrə Azərbaycan birinciliyində qaliblər arasında yer alıb və sambo üzrə yeniyetmələr arasında respublika çempionu olub.

İ.Zəkiyev 1998-ci ildə hərbi xidmətə yola düşüb. Bir çox təhlükəli döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn əsgər Zəkiyev 7 ay orduda nümunəvi xidmət edib, fəxri fərmanlar alıb. 1999-cu ilin fevral ayında növbəti dəfə döyüş tapşırığını yerinə yetirərkən erməni snayperinin açdığı atəş nəticəsində yaralanıb. Güllə onun başına dəyib. İlham aldığı yaradan komaya düşüb.

Komadan çıxdıqdan sonra məlum olub ki, İlham görmə qabiliyyətini tamamilə itirib. Həkimlər hətta belə bir ölümcül yaradan sonra onun sağ qalmasını möcüzə sayıblar. Bütün göstərilən səylərə baxmayaraq, İlhamın görmə qabiliyyətini qaytarmaq mümkün olmayıb. Birinci dərəcəli Qarabağ əlili kimi evə qayıdıb. O zaman onun hələ 19 yaşı tamam olmamışdı. Lakin idmançımız ruhdan düşməyib, sabiq məşqçisi Əhməd Rəcəblinin yanında paralimpiya cüdosu ilə məşğul olmağa başlayıb.

İlham ilk dəfə beynəlxalq tatamiyə 2003-cü ilin avqustunda Kanadanın Kvebek şəhərində keçirilən görmə əlilliyi olan insanların sayca 2-ci dünya çempionatında çıxıb. Gərgin keçən görüşlərin yekununda yarımfinalda kubalı dünya çempionuna uduzan İ.Zəkiyev 2004-cü ildə təşkil olunan Afina Paralimpiya Oyunlarına vəsiqə qazanıb. Azərbaycanı bu mötəbər yarışda təmsil edən yeganə paracüdoçumuzun Yunanıstanda ilk qarşılaşdığı idmançı Kvebekdə məğlub olduğu həmin kubalı olub. Cəmi 100 saniyədə rəqibini üstələyib yarımfinala çıxan həmyerlimiz bu mərhələdə ispan idmançıya cəmi 37 saniyədə, finalda isə Böyük Britaniyadan olan rəqibinə ippon fəndi ilə 62 saniyədə qalib gələrək qızıl medala layiq görülüb.

+90 kq çəki dərəcəsində tatamiyə çıxan digər paracüdoçumuz Zakir Mislimov mübarizəyə 1/4 final mərhələsindən qoşulub. Ukraynalı Aleksandr Pominovla üz-üzə gələn təmsilçimiz uduzub. Ukraynalı idmançı finala yüksəldiyindən Zakir təsəlliverici görüşə qatılıb. "Neftçi" İdman Klubunun üzvü bürünc medal uğrunda yarışda fransalı Jülyen Taurineslə güləşib və ipponla qalib gəlib. O, 3-cü yer üçün yunanıstanlı Klimis Papaçristosu sınağa çəkib. Bu döyüşü də ipponla qalib başa vuran Zakir Avropa Oyunlarının bürünc mükafatına sahib olub.

Qadınlar arasında 57 kq çəki dərəcəsində mübarizədə təmsilçimiz Səbinə Abdullayeva 1/4 finalda Maria Merensiano (İspaniya) ilə qüvvəsini sınayıb. İdmançımız ipponla qalib gələrək yarımfinala yüksəlib. Xanım paracüdoçumuz ukraynalı Nataliya Nikolayçikə yuko və vazari xalları ilə qalib gələrək finala vəsiqə qazanıb. Həlledici mərhələdə ukraynalı həmkarı İnna Çernyaka ipponla uduzan Səbinə Avropa Oyunlarının gümüş mükafatına layiq görülüb.

Beləliklə, cüdoçularımız paralimpiya tariximizə qələbələrlə dolu yeni səhifə yazdılar. Bu uğurun altında imzası olanlar hər cür təqdirə layiqdirlər. Görmə qabiliyyətlərini itirmələrinin isə heç bir əhəmiyyəti yoxdur. Çünki onlar zirvənin yolunu gözüyumulu bilirlər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***
***Fotolar Azpress.az-ındır***






